# Böhtanlara ən tutarlı cavab Azərbaycan reallıqlarıdır

## İslamofobiya meyillərinin, İslama qarşı təxribatların gücləndiyi müasir dövrümüzdə Odlar Yurdu kimi tanınan, müasir, dinamik inkişaf edən ölkəmizə marağın artması ermənipərəst dairələrin planlarını alt-üst edir

**Dünyanın daim dəyişən, təlatümlü siyasi müstəvisində qərəzli dairələrin maraqlarına uyğun törədilən hadisələr insanlığa qarşı cinayət olmaqla faciələrə yol açan mənəvi terror kimi də narahatlıq doğurur. Ekspertlərin etiraf etdikləri kimi, ən təhlükəli virusdan da qorxulu, dövlətlər, xalqlar arasında acı nəticələrini göstərməkdə olan və milli zəmində baş verən "fobiyalar" həyəcan təbili çalmaqda davam edir.**



İkili standartların girovuna, açıq deyilsə, qurbanına çevrilən Şərq ölkələrində baş verənlər məkanı, maraqların çarpazlanması və üst-üstə düşərək eynilik təşkil etməsi baxımından fərqli olsa da, məntiqi nəticə dəyişilməzdir: "Birqütblü dünya"da daha üstün söz sahibi olmaq. Tədqiqatçıların çoxu bu fikirlə razıdır ki, beynəlxalq münasibətlər sistemi üçün ən təhlükəli amil demokratiya pərdəsi altında siyasi xarakterli müxtəlif ideyaların təbliğidir. Faktiki olaraq müasir dünyada "gücə malik super dövlətlərin" siyasəti bu istiqamətdə davam etməkdədir. Dövlətlərə münasibətə, milli maraqlara görə tənzimlənən, yeri gələndə anarxiyaya, bəzən despotizmə çevrilən "dəyişkən demokratiya" "super güclərin" milli maraqlarına xidmətin, başqa dövlətlərin daxili siyasətinə müdaxilənin nəticəsidir. "İkinci qrup" ölkələrə təsir vasitəsi kimi "vətəndaş cəmiyyətinin dəstəklənməsi, milli təhlükəsizlik məsələsi" gündəmdə saxlanılır, maraqlar inhisarlarında olan QHT-lər vasitəsilə reallaşdırılır. İqtisadi inkişafı, demokratik dəyərlərə sadiqliyi ilə seçilən Azərbaycana münasibətdə hər an hiss olunan ayrı-seçkilik ermənipərəst dairələrin ölkəmizə qarşı qısqanc münasibətindən qaynaqlanır. Bütünlükdə region üçün əhəmiyyətli, qlobal enerji layihələrinin müəllifi, əsas tərəfdaşı olan, mühüm beynəlxalq forum və mədəniyyətlərarası dialoqların təşkili ilə seçilən ölkəmizə qarşı təxribatlarda qərəzli Avropa Parlamenti kimi beynəlxalq təşkilatların maliyyələşdirdikləri QHT-lərdən vasitə kimi istifadə demokratik dəyərlərə inamsızlıq yaratsa da, belə hallar hələ də mövcuddur.

Ölkəmizdə daim inkişafda olan demokratiyaya qarayaxma kampaniyasının xarici KİV-lərdə də ifşa edilməsi Azərbaycana rəğbətin ifadəsidir. Bu məsələyə münasibətini verilişlərində diqqətə çatdıran "Rossiya " telekanalının məsələyə münasibəti diqqət çəkəndir: "Avropa Parlamentinin Azərbaycana qarşı radikal tonu anlaşılan deyil və gözlənilməzdir. Qərbdə adətən belə ton o ölkələrə qarşı səslənir ki, onların müstəqil siyasəti amerikalıların xoşuna gəlmir. Avropa Parlamenti qətnaməni hazırlayarkən boş ittihamlar və yalançı "arqumentlərdən" də istifadə edib. Məsələn, sənəddə jurnalist Rasim Əliyevin qətlinə görə iqtidar günahlandırılır. Halbuki, bu məişət xarakterli cinayətdə şübhəli bilinənlərin hamısı həbs edilmişdir. Avropa Parlamenti QHT-lərin xaricdən maneəsiz pul almasına şərait yaradılmasını istəyir. Bu QHT-lərin hansı məqsədə qulluq etdiklərini hamı 2013-cü ilin prezident seçkiləri ərəfəsində gördü. Onlar Qərbdən aldıqları vəsait hesabına kütləvi iğtişaşlar törətməyə cəhd göstərdilər."

Dərin iqtisadi və maliyyə böhranının davam etdiyi indiki zamanda Azərbaycanın gözlənilən risklərdən qorunması üçün bütün səylərin birləşdiriləcəyini bildirən Prezident İlham Əliyevin "Xüsusilə Avrasiya məkanında bu böhran daha da ciddi formalar alıb. Həm Avropada, həm də Asiyada iqtisadi tənəzzül müşahidə olunur. Bunun müxtəlif obyektiv və subyektiv səbəbləri var. Bu səbəbləri əlbəttə ki, təhlilçilər araşdırırlar, araşdıracaqlar. Bu, bizim işimiz deyil. Bizim işimiz ondan ibarətdir ki, ölkəmizi, ölkə iqtisadiyyatını dünyada gedən mənfi proseslərdən maksimum dərəcədə qoruyaq. Biz bunu bacarırıq və uğurla bacarırıq, ölkəmizi qoruyuruq. Ölkəmizin təhlükəsizliyini, sabitliyini, iqtisadi inkişafını təmin edirik" sözləri ölkəmizin sabitlik məkanı olmasının bir daha təsdiqidir. Avropa İttifaqı ölkələrinin böyük humanitar fəlakət olan miqrant axını və faciəsi ilə üz-üzə qaldıkları, 2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunduğu bir zamanda ölkəmizə daha bir xoş xəbər yayıldı. Prezident İlham Əliyevin əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində güclü iradə nümayiş etdirdiyinə, bu məqsədlə çoxsaylı dövlət proqramları həyata keçirildiyinə, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi və Minilliyin İnkişaf Məqsədlərinin uğurla reallaşdırılması istiqamətində uğurlu addımlar atdığına görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Davamlı İnkişaf üçün Cənub-Cənub İdarəedici Komitəsi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Cənub-Cənub Əməkdaşlığı üzrə Beynəlxalq Təşkilat və BMT-yə üzv bir sıra dövlətlər, agentliklər və fondlar tərəfindən təsis edilən "Cənub-Cənub" mükafatı ilə təltif olunması ölkə rəhbərinin siyasi iradəsinin beynəlxalq səviyyədə dəstəklənməsinin ifadəsidir. Bütün dövlətləri bir ailə kimi birləşdirən BMT-nin də daxil olduğu bir neçə təşkilatın Azərbaycan Prezidentinə belə etimadı erməni sevgisini diqqətdə saxlayan Avropa Parlamenti kimi qərəzli bir qurumun çirkin qətnaməsinin həqiqətən kağız parçasından başqa bir şey olmadığını bir daha sübut etdi. Bu, eyni zamanda bir daha sübut edir ki, müstəqil təhlükəsizlik, enerji, mədəniyyət diplomatiyası olan, xarici siyasəti əməkdaşlıq prinsipləri əsasında inkişaf edən Azərbaycana yönəlmiş qara piar kampaniyaları bütün hallarda məğlubiyyətlə nəticələnir. Çünki Azərbaycanda hər şey xarici dairələrin təhriki ilə yox, xalqın iradəsi ilə həll olunur: "Xalq ilə iqtidar arasındakı birlik Azərbaycanda sabitliyin qarantıdır. Bizim bütün uğurlarımıza xor baxanlar da bunu bilsinlər. Biz heç kimin qabağında gözükölgəli deyilik və öz sözümüzü deyirik, deyəcəyik. Azərbaycanın müstəqil həyatını təmin edəcəyik. Azərbaycanda sabitlik, inkişaf, normal həyat davam edir. Biz ölkəmizi bax, bu bəlalardan qorumuşuq. Bizə qarşı uzanan o çirkin əlləri kəsmişik və bundan sonra da ölkəmizi qoruyacağıq, xalqımızın inamlı inkişafını təmin edəcəyik" söyləyən dövlət başçısının arqumentləri reallığa əsaslanır. Güclü siyasi iradənin dövlət siyasətinin Azərbaycan xalqının maraqları üzərində qurulması ilə şərtləndirilməsinin nəticəsidir ki, "Fitch" reytinq agentliyi Azərbaycanın sabit reytinqini "BBB" səviyyəsində qiymətləndirir.

2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının təşkili üçün yaradılan Təşkilat Komitəsinin ilk iclasında deyilənlər də Azərbaycana qarşı düşmən mövqeyini fürsət düşən kimi bildirən qara qüvvələrə daha bir xəbərdarlıq idi. Birinci Avropa Oyunlarının mütəşəkkilliklə başlayıb uğurla başa çatdırılması, Şərq aləmi üçün çox önəmli İslam Həmrəylik Oyunlarının Azərbaycanda keçirilməsi bir daha onu göstərir ki, geosiyasi əhəmiyyəti ilə fərqlənən, sivilizasiyalararası dialoq məkanı kimi tanınan ölkəmiz dünyada sabitlik və əməkdaşlıq üçün çox böyük əhəmiyyətə malikdir.

Xarici dairələri qıcıqlandıran, Azərbaycanda gedən inkişafı ləkələməyə, ölkəmiz haqqında həqiqətə uyğun olmayan rəy yaratmağa çalışanları narahat edən də elə bu amildir. Çox təəssüf ki, İslam aləmi hazırda münaqişələr ocağına çevrilib. Qardaşlıq, bərabərlik dini olan İslama qarşı təhqir-böhtan kampaniyası aparılır. Lakin xarici qüvvələrin ciddi cəhdinə baxmayaraq İslam Həmrəylik Oyunları, "Formula-1" idman yarışması önəmli beynəlxalq hadisə olacaq, bütün dünyanın nəzərləri yenə də Odlar Yurduna yönələcək.

Gələn il Azərbaycanda Dünya Şahmat Olimpiadası keçiriləcək.

Hər bir beynəlxalq tədbir, yarışma ilə Azərbaycan dünyaya müasir, inkişaf etmiş dövlət kimi təqdim olunur. Qədim tarixə, zəngin milli mədəni irsə malik Azərbaycana gələn xarici qonaqların mütləq əksəriyyəti ölkəmizdən ən xoş arzularla ayrılırlar.

Hər kəs ölkəmizdə yaradılan sabitlik və inkişafdan məmnun qaldığını bildirir. İslamofobiyanın gücləndiyi, müsəlman aləminə təzyiqlərin artdığı indiki vaxtda Azərbaycanın multikulturalizm diyarı kimi tanınması, ölkəmizdə dini, milli zəmində heç bir ayrı-seçkiliyin olmaması isə respublikamızın əldə etdiyi ən zəngin mənəvi dəyərlərdir.

Avropanı bürüyən miqrant faciəsinin kəskinləşdiyi bir zamanda illərdən bəri qaçqın, köçkün problemini təkbaşına həll edən Azərbaycan bu sahədə də Avropa ölkələrini qabaqladığını humanizm və xeyirxahlığı, insanlığa verdiyi dəyəri ilə sübuta yetirir. Cənab İlham Əliyevin "Bu gün hamımızın gözü qarşısında müsəlman qaçqınlara işgəncələr verilir. Bu, bizi hiddətləndirir. Onu da qeyd etməliyəm, Azərbaycan o ölkələrdəndir ki, öz səsini ucaldır. Biz ədalətsizliyə dözə bilmirik. Biz ədalətin, insanlığın tərəfdarıyıq. Bütün vacib beynəlxalq məsələlərlə bağlı bizim öz mövqeyimiz var. Hesab edirəm ki, əgər bizim təcrübəmiz geniş şəkildə öyrənilərsə, o zaman dünyada münaqişələrin və dini, milli zəmində qarşıdurmaların sayı da azalacaqdır" fikrini ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta KİV-lərə verdiyi müsahibəsində də paylaşır: "Azərbaycan haqlı olaraq bütün irqlərin və dini inancların tolerantlıq, dostluq ölkəsi kimi tanınmışdır. Bir çox qüvvələr Azərbaycanın formalaşdırdığı bu prinsipə qarşı çıxmışlar. Hər bir millətdə, hər bir nəsildə biz bu yaxşı tendensiyanı qorumalı, qeyri-tolerant qüvvələrə qarşı vuruşmalıyıq." Belçika Senatının fəxri spikeri Ann-Mari-Lizin ölkəmizlə bağlı fikirləri daha maraqlıdır: "Avropa Parlamentinin qətnaməsi konstruktiv deyil və haqlı mahiyyət daşımır. Əgər biz müsbət bir nəticənin əldə olunmasını istəyiriksə Azərbaycanla əlaqə vasitələrimizi açıq saxlamalıyıq. Avropa dairələri tərəfindən heç vaxt tənqid olunmayan Ermənistan nümunəsi olduğu üçün, Azərbaycan özünü ikili standartların qurbanı hesab edir. Niyə biz Ermənistandakı məsələləri heç vaxt gündəmə gətirmirik, əvəzində diqqət mərkəzində yalnız Azərbaycan olur?"

Azərbaycana verilən dəyərə daha bir nümunə. "XXI yüzillikdə Azərbaycanın ən birinci meyarı, onun strateji resursu, xırdalanmayan kapitalı insandır" ("Novıye investiya" qəzeti) sözləri Prezident İlham Əliyevin "Dövlət siyasətimizin əsasında Azərbaycan vətəndaşıdır" müdrik kəlamı ilə eynilik təşkil edir.

Təcrübə və deyilənlər göstərir ki, Azərbaycan tolerantlıq nümunəsidir, bir örnəkdir. Bu hədəfləri təmin etmək üçün xarici siyasətinin prinsiplərinə dönmədən riayət edir, bir çox ənənəvi tərəfdaş ölkələrlə əlaqələrini daha da gücləndirir, yeni istiqamətlər müəyyənləşdirir.

Dünyada baş verən hadisələri təhlil edərək münasibətini bildirən Çexiyanın nüfuzlu "Parlamentilistu.cz" xəbər portalı yazır: "Siçovullar tütəyin ardınca getdiyi kimi Qərbi Avropa da ABŞ-ın arxasınca gedir. Əfqanıstan, İraq, Liviya, Yəmən və Suriyada baş verən müharibələr ABŞ, Fransa və Böyük Britaniyanın səhvidir. Bu müharibələr Qərbin yürütdüyü siyasət nəticəsində baş verib. Müharibədə həlak olan insanlara görə də Qərb məsuliyyət daşıyır." Maraqların çarpazlaşdığı bir vaxtda belə Avropa İttifaqı və başqa beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verən, qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə diplomatiyasının başlıca prinsipləri kimi sadiq qalan Azərbaycanın mövqeyi kimi yeritdiyi siyasət də bəllidir: Azərbaycan müstəqil siyasət aparır, heç bir xarici qüvvənin diktəsi ilə oturub-durmur və sübut edir ki, bu gün müsəlman aləmində dinamik, müasir, öz milli mənəvi dəyərlərinə sadiq, güclü bir dövlət vardır.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***